**Respublika.** - 2024.- 5 iyun. - № 117. - S.12.

# "Ekologiya cəfakeşləri"nin "timsah göz yaşları"

**Jalə Qasımzadə**

**Azərbaycanın yerləşdiyi əlverişli coğrafi mövqe bərpaolunan enerji mənbələrinin potensialından kifayət qədər istifadə etməyə şərait yaradır. Ölkəmizin yaxın 6 ildə günəş və külək enerjisi 5000 meqavat (5 qiqavat) təşkil edəcək. 4 qiqavat həcmində "yaşıl enerji"ni Avropaya ixrac etmək imkanı yaranacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatları isə 157 qiqavatdır. Bu, Azərbaycanın "yaşıl enerji" potensialını dolğun izah edir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalaması da xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz 2030-cu ilədək və ondan sonrakı dövrdə "yaşıl enerji", iqlimlə bağlı hədəflərin reallaşmasına yüksək səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq əzmindədir. Bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi də bunun sübutudur. Azərbaycan mühüm qlobal konfransa ev sahibliyi etməklə beynəlxalq nüfuzunu və ekoloji gündəliyə sadiqliyini nümayiş etdirəcək və bununla da dünya səhnəsində nüfuzlu oyunçu kimi rolunu gücləndirəcək.**

Amma ölkəmizin gücünün artmasından qorxan bir sıra xarici dairələr var. Məsələn, mayın 24-də Paris Şəhər Şurası Azərbaycanın COP29-a ev sahibliyini boykot etmək barədə qərar imzalayıb. İlk növbədə qeyd edək ki, belə qlobal tədbirlərin Paris Şəhər Şurasının səlahiyyətlərinə heç bir aidiyyəti yoxdur. Şura Paris küçələrindəki zibilləri toplamaq, natəmizlik yaradan gəmiriciləri ovlamaqla məşğul olan yerli özünüidarəetmə qurumudur. Amma sözsüz ki, rəsmi Bakının COP29 çərçivəsində gördüyü işlərə, planetin ekoloji təmizliyinin qorunması, "yaşıl enerji"yə keçidlə bağlı irəli sürdüyü beynəlxalq təşəbbüslərə əhəmiyyət verməyən Fransanın belə addımlar atmasının səbəbi xarici siyasətindəki uğursuzluqları ört-basdır etmək niyyətindən xəbər verir. Lakin Yelisey sarayı bu məsələdə tək deyil.

Son olaraq ABŞ Konqresinin 26 nəfərlik heyəti Dövlət katibi Antoni Blinkenə və bu ölkənin Prezidentinin baş müşaviri John Podestaya məktubla müraciət edərək, COP29-un Azərbaycanda keçirilməsini əsassız adlandırıblar. Həmçinin tədbirin ölkəmizdə keçirilməməsini təklif ediblər. Konqres üzvləri ölkəmizin insan hüquqları sahəsində problemlər yaşadığını bildirib, Azərbaycanın ətraf mühit siyasətini ədalətsiz şəkildə tənqid ediblər. Amma burada bir məqam diqqət çəkir. Belə ki, cari ilin əvvəlində Antoni Blinken Prezident İlham Əliyevə zəngində COP29-un Azərbaycanda keçirilməsini yüksək dəyərləndirmiş və əməkdaşlıqdan məmnunluq ifadə olunmuşdu. Həmçinin Prezident Cozef Bayden dövlətimizin başçısını Müstəqillik Günü münasibətilə təbrikində COP29 çərçivəsində Azərbaycana dəstək verməyə hazır olduğunu demişdi. Bəs, cəmi bir neçə gün ərzində nə dəyişdi? Sualın cavabı çox sadədir. Deməli, 26 konqresmen ABŞ-da fəaliyyət göstərən erməni diasporu və Azərbaycanı sevməyən digər qüvvələrin təsiri altında bu addımı atıb. Azərbaycanın Qeyri-Hökumət Təşkilatları (QHT) da 26 ABŞ konqresmeninə ünvanladıqları açıq məktubda bu məqama toxunublar: "26 nəfər ABŞ konqresmeni özünü Azərbaycana qarşı fəaliyyəti ilə ad çıxarmış tarixdəki "26 Bakı komissarı" kimi aparır. Yeri gəlmişkən, onlardan biri Azərbaycan xalqının qanını axıtmış cəllad Stepan Şaumyan idi. Şaumyan kimi "Nagorno-Karabakh" və guya onun şərəfinə "paytaxt" elan edilmiş "Stepanakert" də artıq yoxdur. Azərbaycan tarixi ədaləti bərpa edib. Əgər müraciəti imzalamış ABŞ konqresmenləri Qarabağın dərdini çəkmək istəyirsə, ilk növbədə Qarabağda Ermənistan tərəfindən məhv edilmiş təbiət, kəsilmiş ağaclar, çirkləndirilmiş çaylar, yerlə-yeksan edilmiş ekosistemlər haqqında danışsınlar. Biz bu 26 nəfər ABŞ konqresmenini elə ABŞ şirkətinin sərmayəsi ilə bütün beynəlxalq ekoloji normaları, o cümlədən Espoo Konvensiyasını pozaraq Azərbaycan Respublikası ilə sərhədə bitişik ərazidə - Arazdəyəndə metallurgiya zavodu tikiləndə etiraz etdiyini görmədik. Bu gün də Azərbaycanın transsərhəd çayları Ermənistanın qanunsuz dağ-mədən fəaliyyətinin ekoloji fəsadları ilə üzbəüzdür. Biz bununla bağlı da bir dəfə də olsun ABŞ konqresmenlərinin etirazını eşitməmişik. Budur Sizin təbiətə münasibətiniz? Beləliklə, Sizin müraciətinizin mahiyyəti bizim üçün aydındır. Siz qlobal iqlim dəyişmələrində əsas tarixi məsuliyyət daşıyan inkişaf etmiş ölkələr barədə formalaşmış mövcud çərçivəni gizlətmək, manipulyasiya edərək dünya ictimaiyyətini çaşdırmaq və əsas günahın neft-qaz istehsal edən kiçik ölkələrin üzərinə qoyulması kimi uğursuz cəhdlər edirsiniz".

Buradan da aydın olur ki, Fransa və Birləşmiş Ştatların bu istiqamətdə verdikləri açıqlamalar iqlim dəyişmələri problemini siyasiləşdirmək cəhdindən başqa bir şey deyil. Ölkəmizin gücünü həzm edə bilməyən qüvvələr sadəcə olaraq rəsmi Bakının enerji siyasətinə kölgə salmaq məqsədi güdürlər. Amma bu, danılmaz faktdır ki, Azərbaycan COP29 kimi mötəbər tədbirin keçirilməsi üçün böyük işlər görüb. Konfrans çərçivəsində ölkəmizə gələcək turistlərin təhlükəsizliyi üçün hər cür şərait yaradılır. Dünya birliyi bu işləri izləyir, ona görə də beynəlxalq əhəmiyyətli bir tədbiri Azərbaycana etibar edir. Yəni ermənipərəst konqresmenlərin atdığı addımlar

COP29-un Bakıda keçirilməsi ilə bağlı heç nəyi dəyişməyəcək. 2024-cü ildə Bakı dünyanı narahat edən ekoloji və iqlim məsələlərinin həll olunduğu qlobal mərkəzə çevriləcək.